# Xeyrəddin Qocanın gülüşü



Xeyrəddin QOCA

*"Gəlin, mümkün qədər qısa yazaq, onsuz da həyatda söz əlindən tərpənmək olmur"*

*Y.LENTS*

*(Əvvəli ötən saylarımızda)*

## Sağlığında şərəfsiz olub...

Bir gün X.Qocanın üzvü olduğu təşkilatlardan birinin yaşlı üzvü rəhmətə gedir.

X.Qoca tanışına zəng vurur ki, "bilirsən də, belə bir el fikri var: toya getməmək olar, amma yasa getmək lazımdır". Tanışı da razılıq verir, görüşüb lazım olan ünvana yollanırlar. Yolda X.Qoca dillənir:

- Qardaş, bir söz demək istəyirəm, amma qorxuram haqqımda pis fikrə düşəsən.

Tanışı:

- Sən nə desən, düz deyirsən, ərz elə görüm, nə deyirsən...

X.Qoca:

- Yasına getdiyimiz adam sağlığında çox şərəfsiz olub. Sənə deməyə çəkinirdim.

Tanışı:

- İstəyirsən getməyək.

X.Qoca:

- Məcburuq! Şərəfsiz olsa da, bizim təşkilatın üzvü idi. Bir də, zəng edəndə sənə bir el fikri dedim axı, "toya getməmək olar, amma yasa getmək lazımdır..."

## Danışa bilmirlər

Böyük tədbirlərin birində salonda masalar arxasında əyləşənlər bir-birilə danışırdılar. Arada-ortada gəzən gənc "nəzarətçilər" ayrı-ayrı masalara yaxınlaşıb danışanlara mane olmağa çalışır, hətta onların bəzilərinin adını "rəyasət heyəti"ndə oturanlara çatdırırdılar.

Xeyrəddin Qoca həmin gənclərdən birini çağırıb soruşdu:

- Bilirsən, bu insanlar niyə məruzəçilərə qulaq asmırlar?

- Xeyr!

- Çünki onlar maraqsız danışırlar. Ümumiyyətlə, danışa bilmirlər!

## Qəzeti oxuyurlarmış...

Xeyrəddin Qoca qəzet redaktoru olanda bir bədxah iclasda demişdi: "Bu qəzeti oxuyan yoxdur!"

Qəzet yeni çıxırdı, hələ heç formalaşmamışdı. O adamın isə bütün həyatı nöqsanlarla dolu idi. İş belə gətirdi ki, X.Qoca onun haqqında bir səhifəlik felyeton yazdı. Qəzetlərin bütün nüsxələri satıldı. X.Qoca ikinci felyetonu yazdı, qəzetlər əl-əl gəzdi. Üçüncü, dördüncü felyetonlar dərc olunan qəzetlər kiosklarda qalmadı. X.Qoca ikinci, üçüncü və dördüncü felyetonların axırıncı cümləsini belə bitirirdi: "Filankəs, bəs deyirdin qəzet satılmır!"

## Sünni və şiyə

X.Qoca ilə tələbə yoldaşı çox axtarandan sonra kirayə ev tapırlar. Ev sahibi tələbə yoldaşının adını soruşur, o da deyir. Ev sahibi sevinclə dillənir:

- Deməli, sən seyidsən! Sənin ceddinə qurban olum!

Bir neçə gündən sonra X.Qoca aşura günü olduğuna baxmayaraq, tar çalır. Ev sahibi qırğı kimi onun üstünə yüyürüb tarı əlindən alır və evdən çıxarıb küçəyə qoyur. Üstəlik qışqırır:

- Mən elə bildim, ikiniz də seyidsiniz!

Sonra tələbə yoldaşına üz tutur:

- Gətirib sünnini soxmusan mənim evimə! Bilmirsən sünnilərin quyruğu var?

Ev sahibi ikisini də evdən qovur.

X.Qoca indiyədək bu əhvalata gülür və deyir:

- Hələ mən bilmirəm ki, sünni nədir, şiyə nə? İkisi də müsəlman deyil ki?

## Qara dərili

Xeyrəddin Qoca cavan vaxtı dostu ilə avtobusda gedirdi. Yay vaxtı ikisi də kostyum geymiş, qalstuk bağlamışdı. Bir-birilə söhbət edən qadınlardan biri Xeyrəddin Qocanı göstərib dedi:

- Bu əcnəbi qaralar burada istidən bişmirlər?

O biri qadın cavab verdi:

- Əşi, onlar dəhşətli istilərə öyrəşiblər. Onlar üçün indi burada qışdır.

Heç demə, qadınlar X.Qocanı qara dərililərdən biri hesab ediblər...

## "Sən dərsə gəlmirsən"...

X.Qoca institut qəzetində işləyirdi. Dostu isə həmin institutda təhsil alırdı. Əvvəlcə X.Qoca, sonra da dostu eyni qəzetə məqalələr yazırdılar.

Bir gün dostunun oxuduğu fakültənin dekanı onu çağırıb deyir:

- Sən tez-tez dərs buraxırsan! Belə getsə, institutdan qovulacaqsan.

Dostu and-aman edir ki, heç dərs buraxmayıb, dekan ona inanmır və çıxarıb qəzetin son sayını qoyur onun qarşısına ki, "buyur, bax!"

Qəzetin həmin sayında X.Qocanın zoopark haqqında tənqidi yazısı dərc edilmişdi. Yazıda guya zooparka tamaşaçı kimi gələn tələbə yoldaşından müsahibə almış və yazmışdır: "Tamaşaçı tələbə yoldaşım zooparka tez-tez gəlir. O, dünən də buraya heyvanlara tamaşa etməyə gəlmişdi. Tələbə yoldaşım bildirdi ki, "zoopark pis gündədir, heyvanlara yaxşı qulluq edilmir, onlar ac qalırlar. Hətta kimsə dəvəquşunun gözünü çıxarıb".

Dekan həmin cümlələri göstərib deyir:

- Deməli, tez-tez zooparka gedirsən, deməli, tez-tez dərs buraxırsan! Bu da fakt!

Hansı ki, tələbə yoldaşım o günə qədər zooparkın harada yerləşdiyini belə bilmirdi...

## Bircə vəzifə var...

Xeyrəddin Qoca Milli Məclisə deputatlığa namizəd olanda jurnalistlər ondan platformasını (həmişə deyir, "bu sözü haradan tapıblar?") soruşurlar, yəni harada yol, körpü salacağı ilə maraqlanırlar, cavab verir:

- Mən heç bir vəd-filan vermirəm. Heç özüm dolana bilmirəm, nə yol, nə körpü? Milli Məclis deputatının yalnız bir vəzifəsi olmalıdır: xalqın firavanlığı naminə qanunlar yaratmaq, vəssalam!

## "Müdrik" məsləhət

Dostu X.Qocaya şikayət edir ki, televiziyalara baxmaqdan yorulmuşam...

X.Qoca dillənir:

- Get, radioya qulaq as!

## Qorxuram...

X.Qoca millət vəkili olanda deputat nişanını döşünə taxmırdı. Səbəbini soruşanda deyirdi:

- O nişanı gəzdirməyin şərəfli olduğunu bilirəm, amma gəzdirməyə qorxuram. Birdən küçədə biri yaxamdan yapışdı ki, filan-filan problemlər niyə düzəlmir? Nə cavab verim, hə?

## Mən də öləydim?

Xeyrəddin Qocanın dostu keçmiş Xarici İşlər nazirinə rast gəlir. Rəyini öyrənmək üçün soruşur:

- Hörmətli nazir, Baş konsul necə işləyir?

Nazir bir az düşünüb cavab verir:

- Yaxşıdır, heç bir şikayət yoxdur. Amma bir əhvalat olub, onu deyəcəyəm. Yadınızdadır, Türkiyədə güclü zəlzələ olmuşdu?! Onda fikirləşdim ki, birdən yuxarıdakılar oradakı vəziyyəti soruşarlar, ona görə də başladım Xeyrəddin Qocanı axtarmağa, tapa bilmədim. Fikir-xəyal içərisində kabinetimdə oturmuşdum, bir də gördüm qapı açıldı, Xeyrəddin müəllim girdi içəri. Çox təəccübləndim. Soruşdum ki, siz burada nə edirsiniz? Mən sizi İstanbulda axtarırdım! Nə cavab versə yaxıdır:

- Deyirsiniz yəni mən də orada qalıb öləydim?

## Mənim orada nə işim var...

X.Qoca Baş konsul vəzifəsinin müddəti bitdiyinə görə geri çağırılandan sonra ona Azərbaycanın Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifəsində işləməyi təklif edirlər. O razılaşmır və deyir:

- Siz nə danışırsınız? Mən heç kəlməyi-şəhadəti bilmirəm. Mənim orada nə işim var?! Buraxın, gedim yazı-pozumla məşğul olum.

Odur-budur, 13 ildir Xeyrəddin Qoca özü dediyi kimi, həyatı boyu məşğul olduğu işi ilə, yəni yazı-pozu ilə məşğul olur...

## Yubiley

Satirik X.Qocanın ildə bir dəfə ad günü keçirən, yubileylərdən "ləzzət" alan adamlardan xoşu gəlmir. Əlli yaşı olanda dost-tanışları, qohumları, yaxınları yazıçıya təklif etdilər ki, yubileyini keçirsin. Dedilər ki, "50 yaş ömürdə bir dəfə olur, etiraz etmə".

R.Behbudov adına Mahnı Teatrında həmin yubiley keçirilir. Mədəniyyət və elm xadimləri, ölkənin görkəmli ziyalıları, siyasilər Milli Məclisin deputatını, Azərbaycanın İstanbuldakı Baş konsulunu, yazıçı-dramaturqu təbrik edirlər.

Qəzetlər haqqında xoş sözlər yazırlar, böyük-böyük məqalələr dərc edirlər. Yazıçı haqqında televiziya filmi çəkilir. Hətta yazırlar ki, X.Qoca dövlət tərəfindən çoxdan təltif olunmalı idi. X.Qoca isə deyir: "Bizdə satirik yazıçını təltif etmirlər"...

Yazıçının 60 illik yubileyi yaxınlaşanda yenə deyirlər: "60 yaşa hər adam çatmır, yubiley keçirək, etiraz etmə". Əlli illik yubileyin xoş təsirindən hələ də çıxmayan X.Qoca etiraz etmir, Azərbaycan Yazıçılar Birliyində təntənəli yubiley keçirilir. Yenə qəzetlər tərifli məqalələr dərc edirlər. Televiziyalar verilişlər hazırlayırlar. X.Qoca altmış beş yaşa çatanda düşünür ki, "daha bəsdir, yubiley-filan olmayacaq". Yenə deyirlər "65 yaş az deyil, etiraz etmə". Yazıçı da dost-tanışlarının, qohum-əqrəbalarının sözünü yerə salmır, Beynəlxalq Muğam Mərkəzində möhtəşəm bir yubiley keçirilir. Yubiley başdan-ayağa səmimiyyətlə müşayiət olunur, məşhur musiqiçilər, xanəndələr qonaqlara böyük sənət nümunələri nümayiş etdirirlər. Yenə qəzetlər tərifli məqalələr dərc edirlər...

Yubileydən əvvəl yazıçının musiqiçi dostu X.Qocaya giley-güzar edir ki, onun 60 illik yubileyini keçirməyiblər. X.Qoca yubileyinin sonunda çıxış edir:

- Mənim musiqiçi dostumun yubileyini keçirməyiblər. Keçirməyiblər, yəqin keçirərlər! Görürsünüz də, mənə beş-on ildə bir yubiley keçirirlər...

Sonra üzünü musiqiçi dostuna tutub: Burada çətin bir şey yoxdur, siz də gedin, özünüz-özünüzə yubiley keçirin - deyir.

X.Qoca yubileydən sonra dost-tanışlarına zarafatla deyir: - Hərə bir bizneslə məşğul olur, mənim heç bir biznesim yoxdur. İstəyirəm bir Yubiley Komitəsi yaradım, kimin yubileyini keçirməsələr, biz keçirək... Pulunu ver, yer al, camaatı yığ başına, qoy, o ki var, səni tərifləsinlər. Sən də ləzzət al özünçün!..